# Mən də bu elin qızıyam

**Bu, bir hekayətdir, həyat hekayəti, Tanrının yazdığı bir ömür payının yaşantılarıdır. Qeyri-adi heç nə yoxdur, heç möcüzələr də baş verməyib, sadəcə yaşanıb, ağlı-qaralı, acılı-şirinli xatirələrlə yadda qalıb. O da hamı kimi həyat pillələrini qanunauyğun şəkildə bir-bir addımlayıb, uşaqlıq, yeniyetməlik, gənclik illərini qova-qova qocalığa tələsib. Qocaqlıqmı? Bax, bunu deməyə dilim gəlmir, baxmayaraq ki, hər yaşın öz gözəlliyi var, amma qocalıq sözü ona heç yaraşmır... Hər nə isə, hər halda yetmiş ili arxada qoyub. Yazıdan-pozudan nə qədər qaçsa da yetmiş illiyi ilə bağlı bəzi qəzetlər Bəsti xanıma sürprizlərini edə biliblər. Qəzetçilik sahəsində çalışanların birmənalı şəkildə özlərinə yaxın dost bildikləri Bəsti xanım İsmayılovaya bizim də bir borcumuz var: obyektiv səbəblərdən gecikən bir yazı borcu. Beləliklə, Bəsti xanımı oxucularımızla baş-başa buraxırıq, söylədiklərini bəzək-düzək vermədən olduğu kimi qələmə almaq isə mənlikdir...**

Deyirsiniz həyat hekayətini söyləyim? Bu, elə də asan deyil, olub-keçənləri, acı yaşantıları həyəcansız xatırlamaq mümkünmü?!

Ailəmizdə böyüyən altı qızın altıncısı olmuşam. Görünür elə buna görə də adımı Bəsti qoyublar. Nə etməli, Allah verən paydır. Bilirəm, bunu valideynlərim özləri də gözəl dərk etsələr də, yəqin Tanrıdan bir oğul övladı da diləyirmişlər. Atam Şahbaz dünyasını dəyişəndə mən ikiaylıq körpə idim. Deməli, ata üzü, ata nəfəsi, ata qayğısı mənimçün mücərrəd bir şey olub. Dünyada bütün analar bir-birinə bənzəyir, amma hamı elə bilir ki, onun anasından yaxşısı yoxdur. Mən də eləcə, axı anam bizə həm ana, həm də ata olub. Zavallı anam altı uşağın əlində qalmışdı. Dayılarımız olmasaydı, kim bilir, bizim aqibətimiz necə olacaqdı...

1948-ci il noyabrın 17-si Naxçıvan şəhərində ziyalı ailəsində doğulmuşam. Dediyim kimi, atamızı erkən itirdiyimizdən bütün mehrimizi nənəm Səkinəyə salmışdıq. Elə o da bütün ümidlərini bizə bağlamışdı, təsəllisini bizdə tapırdı. Bəy qızı idi. Özü də çox acılar yaşamışdı, Sovet hakimiyyəti onun ailəsinə qənim kəsilmişdi, gözəl keyfiyyətlərə malik olan Səkinə nənəm, alicənab, mərhəmətli, təmkinli, dözümlü bir insan idi, heç vaxt gileylənməz, göz yaşı tökməz, məğrur görünərdi. Nəvələrini çox sevirdi, mənə xüsusi diqqət yetirirdi. Hələ də xatırlayıram. Ömrünün son günlərini yaşayırdı. Bir dəfə məni yanına çağırdı, elə bildim, nəsə bir iş buyuracaq. Əvvəl heç nə demədi, məni bərk-bərk sinəsinə sıxıb xeyli müddət gözlərimin içinə baxıb handan-hana dilləndi: “Nənəni çox istədiyin kimi, nəvələrini də sevərsən ki, onlar da səni əzizləsinlər”. Onun bu sözləri nəsihət kimi qulaqlarımdan sırğa olub asıldı. Sonralar mən də onun kimi sevimli nənə olmağa çalışdım...

Dediyim kimi, uşaqlığım qayğılarla dolu olub, çətin yaşamışıq, lakin təhsil, oxumaq həmişə birinci planda olub, anam da, dayılarım da bacardıqları qədər buna imkan yaradıblar. 1965-ci ildə Cəlil Məmmədquluzadə adına 2 saylı orta məktəbi əla qiymətlərlə bitirib Bakıya gəldim. Hazırkı Azərbaycan Dövlət Texniki Universitetinin texnologiya fakültəsinə daxil oldum. Özümü çox xoşbəxt sanırdım, axı, tələbə idim, bir neçə il ötəcək mən ali təhsilli mütəxəssis kimi işləyəcək, əməkhaqqı alacaq, ailəmə kömək edəcəkdim. Heç 2 il oxumamışdım ki, tale üzümə yenidən güldü, dünyanın ən yaxşı insanını qarşıma çıxardı, ailə qurdum. Gecə növbəsində oxumaqla yanaşı, o dövrün tələbinə görə ixtisas üzrə işləməliydim. Bir gün, bu isə düz 52 il əvvəl 1967-ci ildə olub, indiki “Azərbaycan” nəşriyyatına gəldim, burada sıravi hesablayıcı kimi işə başladım. Sonralar kadrlar şöbəsində mühəndis, mühəndis-texnoloq, böyük dispetçer, baş texnoloq, istehsalat şöbəsinin rəisi vəzifələrində çalışdım. 1994-cü ildə böyük bir istehsalat müəssisəsinə - “Azərbaycan” nəşriyyatının direktor müavini vəzifəsinə təyin olundum.

Hərdən düşünürəm bu uğurlar təkcə mənim deyil, həyat yoldaşım Rahib olmasaydı həyatda bu qədər irəliləyə bilməzdim. Bunun üçün ona minnətdaram. İki övladımı böyüdüb araya-ərsəyə gətirməkdə də mənim ən yaxın köməkçim Rahib olub.

“Azərbaycan” nəşriyyatının özülü ötən əsrin 70-ci illərində qoyulmuş, 1978-ci ildə Dövlət Komissiyası tərəfindən qəbul edilmişdir. Bina istifadəyə verilən kimi şəhərin müxtəlif ünvanlarında yerləşən qəzet və jurnal redaksiyaları burada yerləşdi. Bura qəzet, jurnal, kitab, dərslik, broşür, plakat və digər çap məhsulları istehsal edən unikal bir müəssisə idi. İş qaynayırdı, çox vaxt evə gecə gedib çıxa bilirdim.

Ötən əsrin 90-cı illərində baş verən ictimai-siyasi hadisələr dövri mətbuatın çap olunduğu bu məkana da təsirsiz ötüşmədi. Çox çətin idi, doğrusu həm də qorxulu idi. Mətbuata güclü senzura qoyulmuşdu, 1990-cı il 20 Yanvar hadisələrindən sonra Bakıda fövqəladə vəziyyət elan olunmuşdu və qəzetlərin nəşrinə nəzarət gücləndirilmişdi. Belə bir şəraitdə qəzetlər gizli bir şəkildə dərc olunurdu, qəzetlərin çapdan çıxması üçün bəzən gecələr belə nəşriyyatda qalmalı olurduq. Bu da mənim o qədər də hamar olmayan ömür yolumun yaddaqalan acı anlarıdır. Mən heç nədən qorxmurdum, çəkinmirdim, həyatın bu ağlı-qaralı, zolaqlı yolları məni daha mübariz edirdi. Bilirdim ki, vətənin bu dar günündə mən də öz iradəmi ortaya qoymalı, vətəndaşlıq borcumu yerinə yetirməliyəm.

Çətin günün ömrü az olar, deyiblər. Xalqımızın başına gətirilən müsibətlər, ağır itkilər nəhayət ki, bizi müstəqilliyimizə qovuşdurdu, yavaş-yavaş işlər yoluna düşdü. “Azərbaycan” nəşriyyatı da yeni dövrünü yaşamağa başladı. Dövlətin mətbuata diqqət və qayğısı nəticəsində nəşriyyatın maddi-texniki bazası gücləndirildi, müasir texniki avadanlıqlarla təchiz olundu. Müstəqilliyimizin ilk illərində kitab və mətbuat orqanlarının çapındakı çətinliklər indi aradan qalxıb, onların nəşri asanlaşıb. Nəşriyyatın istehsalat şöbəsinə rəhbərlik etdiyim üçün, demək olar ki, kitab və qəzet nəşrindəki bütün məsələlərin həlli mənim nəzarətimdə olur. Əlbəttə, bu işdə illərin təcrübəsi, o qədər də sadə olmayan poliqrafiya sahəsində əldə etdiyim bilgi köməyimə gəlir.

Hərdən geriyə boylanıb illərin arxasından öz ömür yoluma, həyatımın gedişinə nəzər salıram, olmuşları saf-çürük edirəm. Bilirsiniz nə düşünürəm, təvazökarlıqdan uzaq da olsa deməliyəm: deyəsən illəri elə-belə yola salmamışam. Hər ilin, bəlkə də hər ayın-günün həyatımda izi qalıb.

Bütün fəaliyyətim boyu ictimai işlərdən heç vaxt kənarda qalmamışam, Yeni Azərbaycan Partiyasının üzvüyəm. Əməyim, zəhmətim dövlətimiz tərəfindən qiymətləndirilib. Hörmətli Prezidentimizin sərəncamı ilə “Əməkdar mədəniyyət işçisi” adına layiq görülmüşəm. Digər mükafatlarım da var.

Hə... bax, bu da yetmiş. İlk baxışda inanmağım gəlmir, ancaq gözlərimi yumub, xəyalən ötən illəri vərəq-vərəq çevirəndə, sevincli-kədərli çağları birər-birər xatırlayanda təskinliyim bu olur ki, tale qisməti qaçılmazdır. Özümü dərk edən gündən əsas bir xüsusiyyət özül daşı olub, yalansız yaşamaq, həqiqət bayrağını uca tutmaq. Mən yalansız olmaq və insanı sevmək kredosu ilə həyatımı tənzimləyə-tənzimləyə ömür keçirmişəm. Özüm də bilmirəm, insanları nə üçün bu qədər sevirəm: Bu, mənim təbiətimdədir...



Yetmişi başa vurdum, ancaq həyatın şirinliyi işləmək, çalışmaq istəyimi azaltmayıb. Bilirsiniz, həyatımın bu anlarında kimləri daha çox xatırladım? Təbii ki, valideynlərimi, sağ olsaydılar yəqin ki, uğurlarıma çox sevinərdilər. Səkinə nənəm isə qanad açıb uçardı. Sevinirəm ki, onların adlarına layiq övlad ola bilmişəm. Yəqin ki, ruhları şad olur...

Xoşbəxtlik... Onu hərə bir şeydə görür. Məndən də soruşa bilərsiniz: “Xoşbəxtəmmi?” Tanrının bəxtimə yazdığı xoş məqamları xatırlayıram: cəmiyyətdə layiqli yer tutmaq, insanların hörmətini qazanmaq, əməyi dövlət tərəfindən dəyərləndirilmək və s... Üstəlik yaxşı həyat yoldaşı, ana, qayınana, ən nəhayət sevimli nənə olmaq... Xoşbəxtlik deyilmi?

Hə... bax, bu da mənim kiçik həyat hekayətim. Qəhrəman deyiləm, elə bir şücaət də göstərməmişəm, sadəcə vətəndaşlıq borcumu yerinə yetirməyə, Məmməd Araz demişkən, bu məmləkətin bir parça daşı olmağa çalışmışam, axı mən də bu elin qızıyam...

Bəli, bu da bir yazının, bir həyat hekayətinin sonu. Əslində bu, son deyil. Dəyərli bir ömür, həyat yaşanmaqdadır. Deməli, bundan sonra da deyiləcək, yazılacaq nələrsə olacaq. Bax, onları da növbəti onilliklərdə qələmə almaq arzusu ilə...

**Zümrüd ABDULLAYEVA,**
**“Respublika”.**

## DÖVLƏT SƏRHƏD XİDMƏTİ MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI

**Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirləri davam etdirilir.**

2019-cu il yanvarın 16-da DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində dövlət sərhədinin pozulmasının qarşısı alınmışdır.

Həmin tarixdə saat 02:25 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Horadiz” sərhəd dəstəsinin xidməti ərazisində Beyləqan rayonunun Əmirzeyidli kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində Azərbaycan Respublikasından İran İslam Respublikası istiqamətində 1 nəfər naməlum şəxsin ayaq izləri aşkar olunmuşdur. Sərhəd zastavasının və qonşu bölmələrin şəxsi heyəti tərəfindən sərhəd pozucusunun mümkün hərəkət istiqamətləri qapadılmış və ərazidə təxirəsalınmaz axtarış tədbirləri həyata keçirilmişdir.

Hadisə ilə əlaqədar birgə tədbirlərin görülməsi məqsədilə İran İslam Respublikasının Aslanduz sahəsi üzrə sərhəd nümayəndəsi dərhal məlumatlandırılmış, İİR sərhəd mühafizə orqanları tərəfindən həmin istiqamətdə sərhəd mühafizə tədbirləri gücləndirilmişdir.

Görülmüş tədbirlər nəticəsində saat 03:20-də sərhəd pozucusu aşkarlanmış və təqib zamanı xəbərdarlıq atəşindən istifadə edildikdən sonra tutulmuşdur. Araşdırma zamanı sərhəd pozucusunun şəxsiyyəti dəqiqləşdirilmiş, Beyləqan rayonu 2-ci Şahsevən kənd sakini 1984-cü il təvəllüdlü Muradov Rahil Məsim oğlu olması müəyyən olunmuşdur.

Həmin ərazinin yoxlanılması nəticəsində 1 ədəd AKM-74 silahı, 1 ədəd patron darağı, 7,62 mm-lik 19 patron və sərhəd pozucusunun digər əşyaları aşkar olunaraq götürülmüşdür.

Hadisə ilə bağlı zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.


**Nəqliyyat vasitələrində təmir boyalanma işləri üçün dəmirçi, rəngsaz və digər xidmətlərin satınalınması ilə əlaqədar ‘’BakuBus’’ Məhdud Məsuliyyətli Cəmiyyəti**

**AÇIQ TENDERƏ DƏVƏT EDİR**

**Tender 1 lot üzrə keçirilir:**

**Lot-1 “BakuBus” MMC-nin balansında olan nəqliyyat vasitələrində təmir-boyalanma işləri üçün dəmirçi, rəngsaz və digər xidmətlərin satınalınması;**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ‘’BakuBus’’ MMC-nin Bakı şəhəri, Suraxanı rayonu, Zığ-Hövsan yolu 1-ci km 1 yerləşən inzibati binası (Əlaqələndirici şəxs Ramiq Zeynalov, telefon 012 4041110) ünvanından ala bilərlər.

**İştirak haqqı (manat)**
**Lot-1 1000**
**Hesab AZ59AZRT38050019440004549002**
**VÖEN 1701622931**
**Bank AZƏR-TÜRK BANK ASC Mərkəz filialı**
**Kodu 501361**
**VÖEN 9900006111**
**M/H AZ02NABZ01350100000000022944**
**S.W.İ.F.T AZRTAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1.Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2.Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3.Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4.Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5.Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6.İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7.İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8.İddiaçının tam adı hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9.İddiaçılar müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*10. Digər sənədlər:*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 13.02.2019-cu il saat 11-00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 28.02.2019-cu il saat 11-00-a qədər, ‘’BakuBus’’ MMC-nin inzibati binası Bakı şəhəri, Suraxanı rayonu, Zığ-Hövsan yolu 1-ci km 1 yerləşən ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 01.03.2019-cu il saat 11-00 tarixində ‘’BakuBus’’ MMC-nin inzibati binası Bakı şəhəri, Suraxanı rayonu, Zığ-Hövsan yolu 1-ci km 1 yerləşən ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

TƏKRAR

“Bakı Metropoliteni” QSC Geodeziya multiskanerinin satınalınması üzrə
AÇIQ TENDER ELAN EDİR
Tender 1 (bir) lot üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 16-dan, (Əlaqələndirici şəxs: İlqar Qasımov, telefon: 490-00-91) ala bilərlər.

LOT-1. Geodeziya multiskanerinin satınalınması.
İştirak haqqı - 200 manat
Hesabın adı: BAKI METROPOLİTENİ QSC
Hesab nömrəsi (İBAN) :
AZ98AZRT38050019440010268002 AZN
VÖEN 1402871431
Bankın adı : AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)
Kod: 501361
VÖEN: 9900006111
Müxbir hesabı:
AZ02NABZ01350100000000022944
SWİFT BİK: AZRTAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün yazılı müraciət;
-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);
-tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır).
-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 05 fevral 2019-cu il saat 18-00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 13 fevral 2019-cu il saat 17-00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 16, ünvanına “İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri” şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 14 fevral 2019-cu il saat 15-00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

“BAKI METROPOLİTENİ” QSC
TENDER KOMİSSİYASI

“Bakı Metropoliteni” QSC istismar və tikinti sahələrinin normal işinin təşkili üçün zəruri olan mal və materialların satın alınması üzrə
AÇIQ TENDER ELAN EDİR
Tender 3 (üç ) lot üzrə keçirilir:
1 lot: Sementin satınalınması
2 lot: Qum, çınqıl və s. materialların (daşınması ilə birlikdə) satın alınması
3 lot: Tyubinglərin satınalınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 16-dən, (Əlaqələndirici şəxs: İlqar Qasımov, telefon: 490-00-91) ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.
İştirak haqqı 1 lot üzrə - 2000 manat
2 lot üzrə - 1500 manat
3 lot üzrə - 1200 manat
Hesab:AZ98AZRT38050019440010268002
VÖEN 1402871431
Bank: AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)
Kodu: 501361
VÖEN:9900006111
M/H: AZ02NABZ01350100000000022944
S.W.İ.F.T:AZRTAZ22

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün yazılı müraciət;
-tenderdə iştirak haqqının ödənilməsi barəsində bank sənədi;
-tender təklifi (zərflərin açıldığı gündən ən azı 40 bank günü qüvvədə olmalıdır);
-tender təklifi qiymətinin 1%-i həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 70 bank günü müddətində qüvvədə olmalıdır);
-iddiaçının son bir il ərzindəki maliyyə vəziyyəti haqqında bank arayışı;
-iddiaçının son bir il ərzindəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
-Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanı tərəfindən arayış;
-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
-müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (Tender təklifi və bank zəmanəti istisna olunmaqla) 21 fevral 2019-cu il tarixinə, saat 18:00-a qədər, tender təklifi və bank zəmanəti möhürlənmiş, ikiqat zərfdə 01 mart 2019-cu il tarixinə, saat 17:00-a qədər Bakı şəhəri, M.Rəfili küçəsi 16, ünvanına “İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri” şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 04 mart 2019-cu il saat 15:00-da “Bakı Metropoliteni” QSC-nin akt zalında, Tender Komissiyasının iclasında, Bakı ş. M.Rəfili küç, 16 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri Tender Komissiyasının iclasında iştirak edə bilərlər.

Tender Komissiyası.

**Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**
**Tarix dəyişikliyi ilə bağlı**
**BİLDİRİŞİ**

Bütün iddiaçılar tender prosedurunda iştirak etmək üçün yuxarıda göstərilən ixtisas sənədlərini 22 fevral 2019-cu il tarixə saat 18-00-a qədər tender komissiyasına təqdim etməlidirlər. İddiaçılar tender təkliflərini və təklifin 1 faizi məbləğində bank təminatını 04 mart 2019-cu il saat 18-00-a qədər ikiqat bağlı zərflərdə iki nüsxədə tender komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər qəbul olunmayacaq.

Təklif zərfləri iddiaçılarların iştirakı ilə 05 mart 2019-cu il saat 11-00-da Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində açılacaqdır.

**Əlaqə nömrəsi:** 498 69 57

**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC**
**M-400 markalı sementin satınalınması məqsədilə**
**AÇIQ MÜSABİQƏ ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2019-cu il yanvarın 24-ü saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı,** Heydər Əliyev prospekti 152, “Çinar plaza”, 24-cü mərtəbə.

**Əlaqə telefonu:** (012) 404-37-00, daxili:1132.

**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC**
**Müxtəlif ölçülü kərpiclərin satınalınması məqsədilə**
**AÇIQ MÜSABİQƏ ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2019-cu il yanvarın 24-ü saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** Bakı, Heydər Əliyev prospekti 152, “Çinar plaza”, 24-cü mərtəbə.

**Əlaqə telefonu:** (012) 404-37-00, daxili:1132.

**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC**
**Tikinti materiallarının satınalınması məqsədilə**
**AÇIQ MÜSABİQƏ ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2019-cu il yanvarın 24-ü saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** Bakı, Heydər Əliyev prospekti 152, “Çinar plaza”, 24-cü mərtəbə.

**Əlaqə telefonu:** (012) 404-37-00, daxili:1132.